


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

21 may 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 19 (3782)


# Dünya yenə Bakıdadır

**Mayın 18-də Bakıda açılış mərasimi keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında çıxış edən Prezident İlham Əliyevin vurğuladığı kimi hazırda ölkəmizdə keçirilən bu forum iştirakçı sayına görə rekord nəticə göstərir. Tədbirə bu qədər böyük maraq göstərilməsi heç şübhəsiz ki, Azərbaycanın nüfuzunun və ona mötəbər tədbirlərin təşkili sahəsində bəslənən beynəlxalq inamın ifadəsidir.**

Dövlətimizin başçısı çıxışında deyib ki, forum üçün 182 ölkədən 45 mindən artıq qeydiyyata alınmış iştirakçı var: "Bununla belə, bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq".

Forum iştirakçılarının Bakının tarixi ilə müasir inkişafının vəhdətini yaxından müşahidə etmək imkanı qazanacaqlarını deyən Prezident qeyd edib ki, Bakı bulvarının genişləndirilməsi, yeni parkların salınması və ictimai məkanların yaradılması şəhərin inkişaf strategiyasının əsas istiqamətlərindən biridir.

Çıxışında Azərbaycanın qədim şəhərlərinin memarlıq irsindən də danışan dövlət başçısı Şamaxı, Naxçıvan, Gəncə, Şəki, Qəbələ və Lahıc kimi şəhər və yaşayış məntəqələrinin tarix boyu formalaşmış memarlıq ənənələrinin bu gün də qorunduğunu bildirib. Prezident qeyd edib ki, Azərbaycanın tarixi abidələri xalqın zəngin mədəniyyətini və dövlətçilik tarixini əks etdirir.

Dövlət başçısı xatırladıb ki, 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunub. BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində Ağdam, Zəngilan və Xankəndidə milli şəhərsalma forumları keçirilib.

Bu tədbirlər azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinin beynəlxalq müstəvidə təqdimatı baxımından mühüm rol oynayıb.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı layihələrə də toxunan Prezident işğal dövründə bölgənin şəhər və kəndlərinin tamamilə dağıdıldığını, tarixi və dini abidələrin məhv edildiyini, hazırda isə həmin ərazilərdə geniş bərpa və quruculuq prosesinin davam etdiyini vurğulayıb: "Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub".

Bakının ekoloji problemlərinə də diqqət çəkən Prezident qeyd edib ki, uzun illər neft sənayesinin təsiri altında qalan bəzi ərazilər tamamilə yenidən qurulub, Ağ şəhər kimi yeni şəhər salınıb.




## Gələcəyin şəhərləri Azərbaycanda müzakirə olunur




## Daxili işlər nazirlərinin görüşü

### İkitərəfli əməkdaşlıq bölgədə təhlükəsizliyə xidmət edir

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Gürcüstanın daxili işlər naziri Sulxan Tamazaşvili və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib. Mayın 18-də Sulxan Tamazaşvili və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Dost ölkənin təmsilçiləri Şəhidlər xiyabanını da ziyarət edib, "Əbədi məşəl" kompleksinin önünə əklil qoyaraq şəhidlərə ehtiramlarını bildiriblər.

*(ardı 2-ci səhifədə)*

## İzlər sübuta çevrilir...

### Cinayət yerində "susanları" kriminalistlər "danışdırır"

Bir cinayətin ən etibarlı şahidi çox güman ki, cinayətkarın elə hadisə yerində buraxdığı izlərdir. Belə görünməz şahidləri tapıb üzə çıxaran kriminalistlərin cinayətkarlığa qarşı mübarizədə nə qədər vacib rol oynadıqlarını zaman-zaman bu amil çox aydın şəkildə ortaya qoyub. "İzləri danışdıran" kriminalistikanın sürətli inkişafı bu gün daha çox əhəmiyyət daşıyır. Çünki cinayətkarlar da boş oturmur, ələ keçməmək üçün "innovativ" düşünməyə, müxtəlif yollar tapmağa çalışırlar.

*(ardı 3-cü səhifədə)*

## Prezidentlər görüşüblər

### WUF13 çərçivəsində əməkdaşlıq müzakirələri aparılıb

Azərbaycan Prezidenti İlham Əliyev WUF13 çərçivəsində Serbiya Prezidenti Aleksandar Vuçiç, Bolqarıstan Prezidenti İliyana Yotova, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Mavriki Prezidenti Daramber Qoxul və Keniya Prezidenti Uillyam Samoei Ruto ilə görüşüb.

Görüşlərdə siyasi əlaqələrin inkişafı, enerji əməkdaşlığı, investisiyalar, turizm, kənd təsərrüfatı və birgə layihələr müzakirə olunub. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və "ağıllı şəhər" layihələri xüsusi maraq doğurub. Dövlət başçıları WUF13 forumunun qlobal şəhərsalma məsələlərinin müzakirəsi üçün mühüm platforma olduğunu vurğulayıblar. Görüşlərdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, qarşılıqlı səfərlərin önəmi və regional sülh gündəliyi ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Prezident İlham Əliyev WUF13 çərçivəsində bir neçə ölkənin hökumət başçısı və rəsmi şəxsləri, həmçinin beynəlxalq təşkilatların rəhbərləri ilə də görüşlər keçirib.

## Prezident müsahibə verib

### Dövlətimizin başçısı aktual məsələlərə münasibət bildirib

Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib. WUF13 forumunun əhəmiyyətindən, Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işlərindən danışan dövlət başçısı bölgədə həyata keçirilən "ağıllı şəhər" və yaşıl enerji layihələrinə də toxunub.

Prezident həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevrildiyini vurğulayıb, Yaxın Şərqdə baş verən gərginliyə münasibət bildirərək diplomatiyanın vacibliyinə diqqət çəkib.

## Dövlət başçılarının Zirvə görüşü

### Prezident İlham Əliyev tədbirdə çıxış edib

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün mayın 15-də bu ölkədə işgüzar səfərdə olub.

Prezident qeyri-rəsmi Zirvə görüşünün digər iştirakçıları ilə Türküstanda bir sıra mədəni məkanları ziyarət edib, Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində iştirak edib. Dövlətimizin başçısı həmin gün Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış edib.


Təhlükəsizlik və dayanıqlı inkişafın ünvanı 2



Konstitusiya Məhkəməsi ilə tanışlıq 3



Cinayətlərin psixoloji portreti 4



Sinqapur polisində yenilik 4



# Respublika Xəbərləri

### Yeni agentlik yaradılıb

Prezident İlham Əliyevin fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Tullantıların İdarə Edilməsi üzrə Dövlət Agentliyi yaradılıb. Yeni qurum tullantıların yığılması, daşınması, emalı və utilizasiyası sahəsində dövlət nəzarətini həyata keçirəcək. Nazirlər Kabinetinə agentliyin fəaliyyəti və tullantıların idarə olunması ilə bağlı yeni strategiyaların hazırlanması tapşırılıb.

### Çimərliklər mövsümə hazırdır

Şıx, Görədil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbələrində yaradılan pulsuz ictimai çimərliklərdə hazırlıq işləri başa çatdırılıb. Ərazilərdə xilasetmə məntəqələri, duş və geyinmə kabinələri, kölgəliklər, oturacaqlar və digər istirahət imkanları yaradılıb.

### Bu fakültə Şuşaya köçürülür

Qarabağ Universitetinin İncəsənət və Turizm fakültəsi Şuşaya köçürüləcək. Bu, 1500-ə yaxın müəllim və tələbənin şəhərdə daimi məskunlaşmasına şərait yaradacaq. Şuşada həmçinin yeni uşaq bağçasının tikintisi planlaşdırılır.

### Bakı–Tbilisi qatarı bərpa olunur

Azərbaycan və Gürcüstan mayın 26-dan Bakı–Tbilisi–Bakı marşrutu üzrə gündəlik sərnişin qatarı reyslərinin bərpası barədə razılığa gəlib. Razılıq Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana səfəri çərçivəsində əldə olunub.

### Bir sıra xidmətlər "mygov"-a birləşib

DİN-in nəqliyyat sahəsi üzrə bir sıra xidmətləri "mygov" platformasına inteqrasiya olunub. Artıq vətəndaşlar sürücülük vəsiqəsinin dəyişdirilməsi, nəqliyyat vasitəsinin texniki baxışı, zədələnməsinə dair arayış və avtomobilin axtarışda olub-olmaması barədə məlumatları birbaşa platforma üzərindən əldə edə biləcəklər.

### Zəngilan və Cəbrayıla köç

Böyük Qayıdış çərçivəsində növbəti köç karvanı Zəngilan şəhəri və Cəbrayılın Şükürbəyli kəndinə çatıb. Zəngilana 5 ailə olmaqla 26 nəfər, Cəbrayılın Şükürbəyli kəndinə isə 107 ailə olmaqla 453 nəfər köçürülüb. Qeyd edək ki, Şükürbəylidə ilkin mərhələdə 635 fərdi ev istifadəyə verilib, məktəb, uşaq bağçası, həkim məntəqəsi və digər sosial obyektlər inşa olunub. Köçən sakinlərə mənzillərin açarları təqdim edilib.

### Qurbanlıq satış məntəqələri müəyyənləşdi

Qurbanlıq heyvan kəsimi və satışının sağlam və rahat şəraitdə həyata keçirilməsi məqsədilə bu il Naxçıvan da daxil olmaqla, ölkə üzrə 134 ünvanda qurbanlıq heyvanların satışı və kəsimi xidmətləri təşkil olunacaq. Məntəqələrin 76-da həm satış, həm kəsim, 27-də yalnız satış, 31-də isə yalnız kəsim xidməti göstəriləcək.

### "İnsan Hüquqları Aylığı" başlayıb

Azərbaycanda 18 may–18 iyun tarixlərini əhatə edən "İnsan Hüquqları Aylığı" elan edilib. Aylıq çərçivəsində insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində maarifləndirmə tədbirləri keçiriləcək. Aylığın məqsədi hüquqi maarifləndirməni gücləndirmək, ayrı-seçkilik, erkən nikah, zorakılıq, narkomaniya və korrupsiya kimi hallara qarşı mübarizəni təşviq etməkdir.

### Qarabağda sahibkarlıq

Son iki ildə Xankəndi, Ağdərə və Xocalıda 644 obyekt sahibkarlıq fəaliyyəti üçün icarəyə verilib. Bölgəyə bu müddətdə 100 milyon manatdan çox investisiya yatırılıb. Hazırda fəaliyyət göstərən obyektlər hesabına 4 minə yaxın şəxs işlə təmin olunub.

### Veloyarışa yekun vurulub

"Bakı–Xankəndi" velosiped yarışının 5 mərhələsinin yekununa əsasən fərdi və komanda qalibləri müəyyənləşib. Yarışın ümumi qalibi İspaniyanın "Burqos" komandasının üzvü yeni zelandiyalı Coş Barnett olub, komanda hesabında da "Burqos" birinci yeri tutub. Beynəlxalq turnirdə 20 ölkədən 24 komanda iştirak edib.

### Miqrasiya saldosu artıb

Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları 2026-cı ilin yanvar-mart ayları ərzində Azərbaycana daimi yaşamaq üçün 964 nəfər gələn, ölkədən isə 493 nəfər gedən qeydə alıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Bildirilib ki, miqrasiya saldosu müsbət 471 nəfər təşkil edib.

# Daxili işlər nazirlərinin görüşü

## İkitərəfli əməkdaşlıq bölgədə təhlükəsizliyə xidmət edir





*(Əvvəli 1-ci səhifədə)*

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov gürcüstanlı həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Vilayət Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə Sulxan Tamazaşvilini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.

O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayıb, ötən illər ərzində imzalanmış sənədlərin işgüzar mühitin formalaşmasına əlverişli şərait yaratdığı, bunun informasiya mübadiləsində özünü göstərdiyi, transmilli cinayətkarlığın bütün növləri, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində səmərəli əməkdaşlığın xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyə xidmət etdiyi qeyd olunub.

Qonaq səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə mövcud sabitlikdən, Bakının dünyanın təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib.

Səfər çərçivəsində qonaqlar Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsinə də baş çəkərək fəaliyyəti ilə tanış olublar.

# Təhlükəsizlik və dayanıqlı inkişafın ünvanı

## WUF13 Azərbaycanın həm də sabitlik modelini dünyaya təqdim edir






Bakı növbəti dəfə dünyanın diqqət mərkəzindədir. Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası – WUF13 öz işinə başlayıb. Mayın 22-dək davam edəcək forum "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu ətrafında qlobal müzakirə platforması rolunu oynayacaq.

Əslində, tədbirin həm məkan olaraq Bakıda keçirilməsi, həm də müzakirə olunan mövzu təsadüfi seçilməyib. Çünki Azərbaycan öz təcrübəsində sübut edib ki, təhlükəsizlik olmadan dayanıqlılıqdan, rifahdan danışmaq mümkün deyil. İndiyədək Azərbaycanda "Avroviziya" Mahnı Müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, COP29 kimi mötəbər tədbirlər zamanı təhlükəsizlik ən yüksək səviyyədə təmin olunub.

Xüsusilə on minlərlə iştirakçının və çoxsaylı dövlət rəhbərlərinin qatıldığı COP29 bir daha göstərdi ki, Bakı böyük beynəlxalq platformalar üçün təhlükəsiz məkandır. Bu gün Azərbaycanın formalaşdırdığı müsbət imicin əsas sütunlarından biri məhz bu sabitlik amilidir. İctimai qaydanın etibarlı qorunması, siyasi sabitlik, çevik idarəetmə və peşəkar xidmət ölkəmizi qlobal tədbirlərin keçirilməsi üçün etibarlı ünvan kimi tanıdıb.




### Polis fövqəladə hallara da hazırlıqlıdır

WUF13-ün açılış günü normadan artıq yağan intensiv yağış belə təhlükəsizliyin təminində hər hansı çatışmazlıq yaratmadı, əksinə, polis əməkdaşlarının gözlənilməz situasiyalara hazırlığını ortaya qoydu.

Kütləvi tədbirlər üçün əvvəlcədən hazırlanmış təhlükəsizlik planları ekstremal hava şəraitində də effektiv işləyirdi. Yağıntının yaratdığı nəqliyyat sıxlığının aradan qaldırılması, tədbir iştirakçılarının təhlükəsiz hərəkətinin təmin olunması, giriş və çıxış istiqamətlərinə nəzarətin gücləndirilməsi operativ şəkildə həyata keçirildi. Yerüstü və yeraltı keçidlərdə təhlükəsizlik tədbirləri artırıldı, parklanma sahələri nəzarətdə saxlanıldı.

Eyni zamanda intensiv yağışın nəticələrinin aradan qaldırılması məqsədilə aidiyyəti qurumlarla birgə fəaliyyət təşkil olundu. Su basmış ərazilərdə operativ müdaxilə tədbirləri görüldü, təxliyə və təhlükəsizlik tədbirlərinə dəstək verildi.

Bütün bunlar bir daha göstərdi ki, Azərbaycan polisi mürəkkəb və gözlənilməz vəziyyətlərdə də yüksək peşəkarlıq nümayiş etdirməyi bacarır.

### Azərbaycan polisinin təhlükəsizlik örnəyi

Əsas müzakirə xətti müasir şəhərlərin təhlükəsiz və dayanıqlı inkişafı olan WUF13 göstərir ki, şəhərsalma anlayışı yalnız memarlıq və infrastrukturla məhdudlaşmır. Təhlükəsizlik artıq urbanizasiyanın inkişafında əsas istiqamətlərdən biridir.

Dünyada risklərin xarakteri ciddi şəkildə dəyişib. Mütəxəssislər bildirirlər ki, ənənəvi yanaşmada şəhər təhlükəsizliyi əsasən cinayətkarlıqla mübarizə kimi qiymətləndirilirdi. İndi isə kibercinayətkarlıq, rəqəmsal təhlükələr, nəqliyyat riskləri, fövqəladə hallara hazırlığın yeni təhlükəsizlik konsepsiyasının əsas elementləri hesab olunur. Riskləri əvvəlcədən müəyyən edib qarşısını almaq artıq zamanın tələbidir. Burada polisin fəaliyyətində yeni texnologiyaların tətbiqi, ictimai maarifləndirmə və vətəndaş məsuliyyətinə üstünlük verilməsi kimi önləyici komponentlər vacibdir.

Bu baxımdan Azərbaycan Daxili İşlər Nazirliyinin fəaliyyətində uzun illərdir cəmiyyətlə tərəfdaşlıq, polis-vətəndaş münasibətlərində qarşılıqlı etimadın qurulması və sabitliyin ortaq maraq müstəvisində qorunması əsas yanaşmalardan biri kimi çıxış edir. Azərbaycan polisinə ictimai etimadın yüksəlməsi də bunun nəticəsidir.

Hətta beynəlxalq sorğular belə vətəndaşların polis xidmətindən məmnunluq səviyyəsinin yüksək olduğunu təsdiqləyir.

Polis yeni çağırışlara da adekvat yanaşır. Hazırda yeni təhdid kimi qiymətləndirilən kibercinayətkarlığa qarşı mübarizədə kiberpolisin əməliyyat-texniki və maarifləndirmə tədbirləri özlüyündə nümunə təşkil edir. Yəni dünyada rəqəmsal təhlükələrin sürətlə artdığı bir dövrdə Azərbaycan da bu sahədə beynəlxalq standartlara uyğun mübarizə strategiyası formalaşdırıb.

### Qarabağda təhlükəsiz şəhərlər...

Təhlükəsiz şəhər inşa etmək baxımından Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma işləri Azərbaycanın WUF13 çərçivəsində ölkəmizə gələn iştirakçılara təqdim edə biləcəyi mühüm faktlardır.

Azad olunan torpaqlarda "ağıllı şəhər" konsepsiyası təhlükəsizlik sistemləri ilə paralel şəkildə tətbiq edilir. Şəhərsalma layihələrinin ilkin mərhələsindəcə nəzərdə tutulan bu yanaşma Böyük Qayıdış proqramı çərçivəsində doğma torpaqlarına qayıdan insanlar üçün forumun çağırışlarında nəzərdə tutulduğu kimi, rahat və təhlükəsiz yaşayış məskənlərinin formalaşdırılmasını hədəfləyir.

Minalardan təmizləmə, polisin iştirakı ilə qanunsuz silah-sursatın aşkaranaraq götürülməsi, təhlükəsiz yaşayış mühitinin formalaşdırılması azad olunan torpaqlarda şəhərsalmanın əsas zəminini yaradır. Azərbaycan Bakıda keçirilən forum vasitəsilə dünyaya həm də bu mesajı verir ki, Qarabağda dayanıqlı şəhərlər təhlükəsiz mühitdə yenidən salınır, həyat yenidən canlanır!

# Şuşa, sən azadsan!

## Daxili Qoşunların hərbçisinin arzusu onu şəhidlik zirvəsinə ucaltdı



Rəşadətli ordumuz Vətən müharibəsi, eləcə də anti-terror tədbirlərində öz missiyasını peşəkarlıqla yerinə yetirib. Torpaqlarımızın azadlığı uğrunda şəhidlər vermişik. Onların sırasında Daxili Qoşunların əsgəri Vəliyev Fərid Güloğlan oğlunun da adı var.

F.Vəliyev 1993-cü ildə Beyləqan rayonunun Əhmədli kəndində doğulub. 2013-cü ildə həqiqi hərbi xidmətini başa vurduqdan bir müddət sonra DİN-in Daxili Qoşunlarında hərbi xidmətə qayıtmağa qərar verib. Onun xidmətə qəbulla bağlı müraciəti Qoşunların komandanlığı tərəfindən müsbət cavablandırılıb. 2014-cü ilin oktyabrın 31-dən etibarən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. "N" saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsi və xüsusi təyinatlı dəstədə təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub.

"N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri polkovnik-leytenant Anar Rizvanov Vətən müharibəsi zamanı erməni işğalçılarına qarşı döyüşüb, tabeliyindəki şəxsi heyətdən 9 nəfər şəhidlik zirvəsinə ucalıb. Bu şəhidlərdən biri də Fəriddir. O, deyir ki, Vətən müharibəsi zamanı şəxsi heyət döyüş tapşırıqlarının icrasına hazırlıq görüb. 2020-ci ilin oktyabr ayının ortalarında "N" saylı hərbi hissədən Cəbrayıl rayonuna gediblər. Həmin vaxt ön cəbhənin bütün istiqamətlərində döyüşlər daha da şiddətlənib. Müdafiə Nazirliyinin tərkibindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə Daxili Qoşunların xüsusi təyinatlıları müxtəlif döyüş əməliyyatlarına qatılıblar. Xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçularına öncə Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad edilən ərazilərinin müdafiəsi, bununla yanaşı, ələ keçirilən bəzi hərbi obyektlərin mühafizəsi tapşırılıb. Döyüş zonasına gəldiyi gündən Fərid torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanıb, mühafizəsi həvalə edilən hərbi obyektləri, qənimət götürülən çoxlu sayda silah-sursatı, texnikanı sayıqlıqla qoruyub.

Oktyabr ayının sonunda digər xüsusi təyinatlı bölmələrlə birlikdə Xocavənd rayonunun Hadrut qəsəbəsində toplanıblar. Orada Şuşa şəhərinin işğaldan azad olunması üzrə döyüş əməliyyatına cəlb edilmələri barədə tapşırıq qarşıya qoyulub. Beləliklə, Şuşa şəhərinə doğru avtomobil karvanı ilə hərəkətə başlayıblar. Xocavənd rayonunun ərazisində karvan düşmən artilleriyası tərəfindən atəşə tutulub. Qruplarla piyada şəkildə hərəkəti davam etdiriblər. Bir neçə gün ərzində Xocavənd və Xocalı rayonlarında "sızma" fəaliyyətini yerinə yetirərək dağlıq-meşəlik ərazilərdən keçməklə Şuşaya məsafəcə yaxınlaşıblar. Şuşa ətrafındakı yüksəkliklər və yollar uğrunda ağır döyüşlərin gedişində işğalçıların müqaviməti qırılıb, atəş nöqtələri susdurulub, mühüm mövqeləri uğurlu həmlələrlə alınıb. Fəridin son döyüşü noyabrın 4-də, Şuşa-Laçın yolu istiqamətində olub.

"N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini kapitan Bilal Məmmədov da Vətən müharibəsi iştirakçısıdır. O da bildirir ki, Fərid ön cəbhədə bütün çətinliklərə və təhlükələrə layiqincə sinə gərib. Pulemyotçu köməkçisi idi, avtomatla silahlanıb, əlavə olaraq sursat daşıyıb. Düşmənin üzərinə cəsarətlə irəliləyib.

Noyabrın 4-də Şuşa-Laçın yolu üzərindəki vacib yüksəkliklərdən birinə hücuma keçiblər. Hücum ermənilərin təchizat yolunu kəsmək, bu ərazidə möhkəmləndirilmiş mövqelərə yiyələnmək məqsədi daşıyıb. Döyüş zamanı düşmən dronlar vasitəsilə müşahidə apararaq döyüşçülərimizin yerləşmə koordinatlarını öz artilleriya bölmələrinə ötürüb. Beləcə, onlar ermənilər tərəfindən müxtəlif çaplı artilleriya və atıcı silahları ilə atəşə məruz qalıblar. Fərid yaxınlıqda partlayan top mərmisi qəlpələrindən yaralanıb və onun həyatını xilas etmək mümkün olmayıb. Silahdaşlarının sözlərinə görə, Fərid Şuşaya qədəm basmağı çox arzulayıb, ancaq Şuşanın azad olunmasına bir neçə gün qalmış şəhadətə yüksəlib. Şuşa-Laçın yolu üzərindəki yüksəklik uğrunda döyüş uğurla başa çatdıqdan sonra silahdaşları onun şəhid olma xəbərindən sarsılıblar. Onunla bağlı xatirələrini bölüşən Vətən müharibəsi iştirakçıları Fəridin etibarlı silahdaş olduğunu dedilər. Döyüşlərdə nikbinliyi və qorxmazlığı ilə yoldaşlarını da ruhlandırıb. O gün düşmənin bütün mövqeləri darmadağın edilməklə şəhidlərimizin qisası alınıb...

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 və 29 dekabr tarixli müvafiq sərəncamları ilə əsgər F.Vəliyev ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# İzlər sübuta çevrilir...

## Cinayət yerində "susanları" kriminalistlər "danışdırır"





*(Əvvəli 1-ci səhifədə)*

Bəs onların bu yolları necə kəsilir, cinayətin elmi əsaslarla açılmasında kriminalistikanın mövcud imkanları nədən ibarətdir sualına cavab tapmaq üçün üz tutduq Daxili İşlər Nazirliyinin Kriminalistik Tədqiqatlar İdarəsinə.

### Statistik göstəricilər işin miqyasını göstərir

İdarənin ötənilki fəaliyyəti barədə məlumat verən şöbə rəisi polis polkovniki Elçin Mahmudov deyir ki, müasir kriminalistik elmi metodların tətbiqi ilə müxtəlif növ məhkəmə ekspertizaları və kriminalistik tədqiqatlar aparmaqla, əməliyyat və istintaq orqanlarının fəaliyyətinə töhfə verirlər. Şöbə rəisi statistik göstəriciləri də açıqladı. Onun sözlərinə görə, sorğular əsasında məhkəmə ekspertizaları və müvafiq kriminalistik tədqiqatlar aparıblar. Əməliyyat, istintaq və təhqiqat orqanlarına arayış və məktublarla cavablar verilib. Müasir identifikasiya sistemlərinin tətbiqi nəticəsində faktlar üzrə eyniləşdirmə həyata keçirilib ki, buraya daktiloskopik, genetik (DNT) tədqiqatlar daxildir.

Eləcə də cinayət törətməkdə şübhəli şəxslərin müəyyən edilməsi və cinayətlərin açılması təmin edilib, əldə olunmuş məlumatlar operativ qaydada aidiyyəti yerli polis orqanlarına, eləcə də DİN-in NHİX-nin "Əməliyyat məlumat" sisteminə təqdim olunub. Hesabat dövründə məhkəmə ballistik, məhkəmə daktiloskopik, məhkəmə-genetik (DNT) və məhkəmə partlayış-texniki ekspertizalar üzrə ekspert rəyləri tərtib edilərək aidiyyəti üzrə göndərilib.

### "Kriminalistlərimiz çox geniş sahələri tədqiq edirlər"

Bizi idarənin müxtəlif kriminalistik fəaliyyət istiqamətləri və şöbələri ilə tanış edən Təşkilati-metodiki bölmənin rəisi polis kapitanı İsmayıl Əmirli məlumat verir ki, qurumun fəaliyyəti yalnız ekspert rəylərinin hazırlanması ilə məhdudlaşmır. Hadisə yerlərinə baxışın kriminalistik təminatı, müxtəlif mənşəli izlərin və bioloji materialların aşkar edilməsi və götürülməsi, maddi sübutların elmi əsaslarla tədqiqi, eyniləşdirmə proseslərinin həyata keçirilməsi, eləcə də müasir informasiya sistemləri və məlumat bazalarının formalaşdırılması işlərin ayrılmaz tərkib hissəsidir.

Onu da öyrənirik ki, hadisə yerlərindən götürülmüş əl izləri, bioloji nümunələr, DNT profilləri, güllə və gilizlər, fotoşəkillər, sənədlər və digər obyektlər üzrə məlumat bazasının yaradılması və mütəmadi olaraq təkmilləşdirilməsi də burada həyata keçirilir. Bu məlumat bazaları vasitəsilə cinayətlərin açılması sürətləndirilir, şübhəli şəxslərin digər cinayətlərdə iştirakı müəyyən edilir, həmçinin naməlum şəxslərin və meyitlərin şəxsiyyətinin müəyyənləşdirilməsi təmin olunur.

### Dünyanın qabaqcıl ölkələri ilə təcrübə mübadiləsi aparılır

Ümumən isə İdarədə daktiloskopik, ballistik, partlayış-texniki, trasoloji, xəttşünaslıq, avtotexniki, portret, bioloji, botaniki, mineraloji, ekoloji, fonoskopik tədqiqatlar aparılır. Bundan başqa, foto və video materialları, kompüter avadanlığı və məlumatlarının tədqiqatı, material, maddə və məmulatların fiziki-kimyəvi üsullarla tədqiqi və sənədlərin texniki tədqiqi, yeyinti (qida) məhsullarının tədqiqi həyata keçirilir.

Şübhəsiz ki, bu qədər geniş sahə zəngin elmi bilik və təcrübə tələb edir. Buna görə də İdarənin beynəlxalq əməkdaşlıq əlaqələri davamlı olaraq genişləndirilir və bu istiqamətdə sistemli tədbirlər həyata keçirilir. Artıq iki ildir ki, qurum Avropa Məhkəmə Ekspertizası İnstitutları Şəbəkəsi (ENFSI)-nin üzvü kimi fəaliyyət göstərir və bu çərçivədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, müasir metodların tətbiqi, eləcə də qarşılıqlı əməkdaşlığın inkişafı istiqamətində ardıcıl iş aparır.

Kriminalistlərimiz Türkiyə, Almaniya, İspaniya, İtaliya, Macarıstan, Belarus, Gürcüstan, Rusiya, Avstriya və digər ölkələrdə təşkil olunan ixtisasartırma kurslarına, beynəlxalq təlim proqramlarına və praktiki məşğələlərə cəlb olunurlar.

Bu istiqamətdə görülən işlər nəticəsində əməkdaşların peşəkar bilik və bacarıqları daim təkmilləşdirilir, kriminalistik sahədə ən son yeniliklərin tətbiqi təmin olunur və ümumilikdə xidmət fəaliyyətinin keyfiyyəti daha da yüksəldilir.

*(Ardı növbəti sayımızda)*

*R.Mehtiyev*

# Konstitusiya Məhkəməsi ilə tanışlıq

## Kursantlara məhkəmə təcrübəsi təqdim olunub



Polis Akademiyasının Hüquq fakültəsinin I kurs kursantları Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində tanışlıq turunda iştirak ediblər. Tədbirin təşkilində əsas məqsəd kursantların hüquqi biliklərini artırmaq, Konstitusiya Məhkəməsinin strukturu və səlahiyyətləri haqqında daha ətraflı məlumat əldə etmək olub.

Kursantlar Konstitusiya Məhkəməsinin strukturu, məhkəmə icraatı və fəaliyyət istiqamətləri ilə tanış olublar. Bundan əlavə, Konstitusiya Məhkəməsi hakimləri və Aparatının əməkdaşları tərəfindən məhkəmədə görülən tədbirlərin təfərrüatları praktik nümunələr əsasında ətraflı təqdim olunub.

Tanışlıq turunun sonunda Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə bağlı müzakirələr aparılıb və kursantları maraqlandıran suallar cavablandırılıb.

# Bilik və təcrübə bir arada

## Polis Akademiyasında interaktiv dərslər davam edir

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yüksək peşəkarlığa malik mütəxəssislərin iştirakı ilə keçirilən dərslər davam etdirilir.

Müxtəlif fənlər üzrə təşkil olunan interaktiv dərslərdə qonaq qismində DİN-in Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsinin rəisi polis polkovniki İsmayıl Əliyev, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, hüquq elmləri doktoru, dosent Mətanət Əsgərova, Milli Aviasiya Akademiyasının Magistratura və doktorantura şöbəsinin müdiri, hüquq elmləri doktoru, dosent Araz Qədiməliyev, Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Orxan Aslanov iştirak ediblər.

Mütəxəssislər müxtəlif mövzular üzrə keçirilən mühazirələrdə kursantlara cinayət prosesində sübutetmə mexanizmləri, ədliyyə orqanlarının fəaliyyəti, qanunvericiliyin əsas prinsipləri, eləcə də mülkiyyət əleyhinə cinayətlərin hüquqi xüsusiyyətləri barədə nəzəri və praktiki məlumatlar təqdim ediblər. Dərslər zamanı hüquq tətbiqetmə təcrübəsində rast gələnən məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, kursantları maraqlandıran suallar cavablandırılıb.

# "Təmiz hava" aylığı

## Məqsəd insanların sağlamlığını qorumaqdır




Daxili İşlər Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə Tədbirlər Planına əsasən, 2026-cı il aprelin 25-dən mayın 15-dək respublika ərazisində növbəti "Təmiz Hava" aylığı keçirilib. Tədbirlərin əsas məqsədi atmosfer havasının çirklənməsinin qarşısının alınması, nəqliyyat vasitələrinin ətraf mühitə buraxdığı zərərli tullantıların minimuma endirilməsi, ekoloji təhlükəsizliyin təmin olunması və əhalinin sağlam mühitdə yaşamasına töhfə verilməsi olub.

"Təmiz Hava" aylığı respublikanın bütün şəhər və rayonlarını əhatə edib, bu istiqamətdə geniş maarifləndirici və nəzarət tədbirləri həyata keçirilib. Aylıq çərçivəsində yol polisi əməkdaşları tərəfindən ekoloji normalara cavab verməyən, atmosferə normadan artıq tüstü və zərərli qaz buraxan nəqliyyat vasitələri müəyyən edilərək qanunvericiliyə uyğun tədbirlər görülüb. Sürücülərlə profilaktik və maarifləndirici söhbətlər aparılıb, nəqliyyat vasitələrinin vaxtında texniki baxışdan keçirilməsinin və daim saz vəziyyətdə saxlanılmasının vacibliyi onların diqqətinə çatdırılıb. Bildirilib ki, avtomobillərin texniki sazlığına nəzarət yalnız "Təmiz Hava" aylığı çərçivəsində deyil, daim diqqətdə saxlanılmalıdır.

Qeyd edək ki, həyata keçirilən bu tədbirlər ətraf mühitin qorunmasına, atmosfer havasının təmiz saxlanılmasına və ekoloji təhlükəsizliyin daha da gücləndirilməsinə xidmət edir.

# Sosial şəbəkələrin görünməyən təhlükəsi

## Yeniyetmələri hədəf alan virtual cinayətlər artır

**Texnologiyanın sürətli inkişafı sosial şəbəkələri həyatımızın ayrılmaz hissəsinə çevirib. Bu gün internetdən istifadə etməyən yeniyetmə tapmaq demək olar ki, mümkün deyil. Dərsdən sonra saatlarla telefonda vaxt keçirən uşaqlar müxtəlif platformalarda həm əylənir, həm də ünsiyyət qururlar. Lakin virtual dünyanın görünməyən tərəfləri də var. Son illər sosial şəbəkələr üzərindən yeniyetmələri hədəf alan cinayət hallarının artması isə daha çox narahatlıq yaradır.**






Artıq bir çox valideyn övladının telefonda təhlükə ilə üz-üzə qala biləcəyini anlayır. Çünki cinayətkarlar indi insanları küçədə deyil, ekran arxasında axtarırlar. Saxta profillər, yalan vədlər, təhlükəli oyunlar və psixoloji təsir üsulları internet məkanında ən çox istifadə olunan üsullar sırasındadır.

### Saxta tanışlıq profilləri

Sosial şəbəkələrdə cinayətkarların ən çox istifadə etdiyi üsullardan biri saxta tanışlıq profilləridir. Özünü yeniyetmə kimi təqdim edən şəxslər uşaqlarla uzun müddət yazışır, onların etibarını qazanmağa çalışırlar. İlk baxışda adi söhbət kimi görünən bu ünsiyyət sonradan təhlükəli vəziyyətə çevrilə bilir.

Bəzi hallarda yeniyetmələr şəxsi şəkillərini, ailə məlumatlarını və hətta yaşadıqları ünvanı belə qarşı tərəfə göndərirlər. Daha sonra həmin məlumatlardan şantaj vasitəsi kimi istifadə edirlər. Elə hallar olur ki, uşaqlar qorxduqları üçün valideynlərinə heç nə demirlər, deyə bilmirlər.

### Kiberbullinq ciddi problemə çevrilib

Virtual məkanda ən çox rast gəlinən problemlərdən biri də kiberbullinqdir. Sosial şəbəkələrdə təhqir, alçaldıcı davranış, təhdid və qeyri-etik paylaşımlar yeniyetmələrin psixologiyasına ağır təsir göstərir. Bəzən bir paylaşım və ya yazılan bir neçə cümlə uşağın bütün həyatına təsir edə bilir. Məktəbdə başlayan münaqişələr internetdə davam edir, təhqirlər isə daha geniş auditoriyaya yayılır.

Bu vəziyyət yeniyetmələrdə özünə qapanma, aqressiya və qorxu yaradır. Yeniyetmələr diqqət çəkmək və fərqlənmək üçün təhlükəli hərəkətlər etməyə çalışırlar.

### Dələduzluğun yeni üsulları

Sosial şəbəkələrdə yayılan "aşağı faizlə kredit", "hədiyyə qazandınız", "asan gəlir" və s. kimi mesajlar da əsas təhlükəli paylaşımlar sırasındadır. Cinayətkarlar məşhur şirkətlərin və ya tanınmış şəxslərin adından saxta səhifələr açaraq insanları aldatmağa çalışırlar.

Yeniyetmələr bəzən bu elanlara inanaraq valideynlərinin bank kartı məlumatlarını və şəxsi hesab şifrələrini qarşı tərəfə göndərirlər. Nəticədə həm maddi zərər yaranır, həm də şəxsi məlumatlar təhlükəyə düşür.

### Valideyn nəzarəti zəruridir

Mobil oyunlar vasitəsilə yayılan bəzi tətbiqlər də uşaqlar üçün ciddi risk yaradır. Telefona yüklənən zərərli proqramlar vasitəsilə şəxsi məlumatların ələ keçirilməsi isə an məsələsidir.

Gündəlik müşahidələr göstərir ki, uşaqları internet təhlükələrindən qorumaq üçün ailə nəzarəti vacibdir. Valideyn övladının kimlərlə ünsiyyət qurduğunu, hansı səhifələri izlədiyini və internetdə nə qədər vaxt keçirdiyini bilməlidir.

Ən vacib məsələlərdən biri də uşaqlarla açıq ünsiyyət qurmaqdır. Valideyn övladı ilə elə ünsiyyət qurmalıdır ki, yeniyetmə virtual məkanda qarşılaşdığı təhlükələr barədə ona rahat şəkildə danışa bilsin. Qorxu və qadağalar isə bəzən problemi gizlətməyə səbəb olur.

Məktəblərdə internet təhlükəsizliyi ilə bağlı maarifləndirici tədbirlərin keçirilməsi də vacib məsələlərdəndir. Şagirdlər sosial şəbəkələrdə hansı məlumatların paylaşılmasının təhlükəli olduğunu bilməlidirlər.

Unutmaq olmaz ki, virtual aləmdə atılan hər addım real həyatda ciddi fəsadlar törədə bilər. Yeniyetmələrin təhlükəsizliyinin qorunması üçün ailə, təhsil müəssisəsi və cəmiyyət birlikdə məsuliyyət daşıyır. İnternetdən təhlükəsiz və düzgün istifadə qaydalarının öyrədilməsi isə bu risklərin qarşısını almağın ən vacib yollarından biridir.

*Aytən Tahirova*

# "Bıçaq Mələyi" - zorakılığa qarşı hazırlanmış heykəl

## 100 min bıçaqdan yaradılan sənət əsəri dünyaya mühüm mesaj verir



Dünyada diqqət çəkən ən fərqli heykəllərdən biri hesab edilən "Bıçaq Mələyi" həm görünüşü, həm də daşıdığı məna ilə insanları düşündürür. Böyük Britaniyada hazırlanmış bu nəhəng heykəl müxtəlif cinayətlərdə istifadə edilmiş təxminən 100 min bıçaqdan düzəldilib. Layihənin müəllifi britaniyalı heykəltəraş Alfi Bredlidir. Heykəlin hazırlanmasında polis tərəfindən müsadirə edilmiş və ya vətəndaşlar tərəfindən könüllü təhvil verilmiş bıçaqlardan istifadə olunub.

"Bıçaq Mələyi" ilk baxışdan adi sənət əsəri təsiri bağışlasa da, onun arxasında ciddi sosial mesaj dayanır. Heykəlin əsas məqsədi cəmiyyətdə zorakılığa və xüsusilə bıçaqlı cinayətlərə diqqət çəkməkdir. Layihə müəllifləri insanların bu heykələ baxaraq zorakılığın ağır nəticələri haqqında düşünməsini istəyiblər. Nəhəng ölçülü heykəl metal qanadlı mələk formasında hazırlanıb. Onun üzərində istifadə olunan bəzi bıçaqların üzərinə cinayət qurbanlarının adları və ya ailələrinin mesajları həkk olunub. Bu detal heykəli daha təsirli və emosional edir. Çünki burada yalnız metal parçaları deyil, faciəli həyat hekayələrinin izləri də əks olunur.

"Bıçaq Mələyi" müxtəlif şəhərlərdə nümayiş etdirilərək minlərlə insanın diqqətini cəlb edib. Heykəlin sərgiləndiyi yerlərdə zorakılığa qarşı maarifləndirmə tədbirləri də təşkil olunur. Layihə xüsusilə gənclərə yönəlmiş sosial mesaj kimi qiymətləndirilir. Bu layihə ilə bağlı sənət və sosial sahə üzrə mütəxəssislər bildirirlər ki, bəzən bir sənət əsəri minlərlə sözün ifadə edə bilmədiyini daha güclü şəkildə çatdıra bilir. "Bıçaq Mələyi" də məhz bu baxımdan təsirli nümunədir. O, bir tərəfdən zorakılığın dəhşətli nəticələrini göstərir, digər tərəfdən isə cəmiyyətə sülh çağırışı edir. Cinayətdə istifadə olunmuş əşyaların sənət əsərinə çevrilməsi insanların düşüncəsində güclü iz buraxır.

"Bıçaq Mələyi" zorakılığa qarşı simvola da çevrilib. Sosial şəbəkələrdə və dünyanın müxtəlif ölkələrində geniş müzakirə olunan bu layihə insanlara bir daha xatırladır ki, hər bir zorakılıq əməlinin arxasında insan taleyi dayanır. Heykələ baxan insanların çoxu onun yaratdığı təsirin uzun müddət yadda qaldığını bildirirlər. Buna görə də "Bıçaq Mələyi" həm xəbərdarlıq, həm də ümid simvolu kimi qəbul olunur. Zorakılığın azalması üçün cəmiyyətin birlikdə fəaliyyət göstərməsi isə bu mesajın ən vacib elementidir.

*A.Tahirova*

# Cinayətlərin psixoloji portreti

## Hadisələrin görünməyən motivləri və gizli səbəbləri



Cəmiyyət əksər hallarda baş vermiş cinayət hadisələrinin yalnız nəticəsi ilə maraqlanır, diqqəti məhz o istiqamətə yönəldir. Lakin hər hadisənin arxasında görünməyən bir səbəb gizlənir. Kriminal psixologiya məhz bu görünməyən tərəfi araşdıran, cinayətlərin səbəblərini və mexanizmini daha dərindən izah etməyə çalışan bir sahədir.

Son illərdə hüquq-mühafizə orqanlarının fəaliyyətində bu istiqamət daha geniş tətbiq olunmağa başlayıb. Çünki təkcə sübutların toplanması deyil, hadisənin psixoloji səbəblərinin anlaşılması da istintaqın gedişinə ciddi təsir göstərir.

### Düşüncədən cinayətə gedən yol

Cinayətlərin anatomiyası araşdırılarkən onların əksəriyyətinin bir anın içində baş vermədiyi məlum olur. Bir çox məqamlarda bu proses uzun müddət ərzində yığılan gərginlik, yanlış mühit, sosial problemlər və fərdi seçimlərin nəticəsi kimi ortaya çıxır. Uşaqlıq dövründə yaşanan problemlər, ailə daxilində zorakılıq və nəzarətsiz mühit bəzi insanlarda davranış pozuntularının formalaşmasına səbəb ola bilir.

Eyni zamanda emosional nəzarətin zəifliyi, impulsiv qərarlar və aqressiv davranışlar da risk faktorları kimi qiymətləndirilir. Lakin hər risk faktorunun mütləq cinayətlə nəticələndiyini demək düzgün olmaz. Burada şəxsiyyətin formalaşması əsas rol oynayır.

### Cinayətin arxasındakı motivlər

Cinayətlərin səbəbləri yalnız bir istiqamətlə məhdudlaşmır. Bəzi hallarda maddi maraq ön planda olur, bəzi hallarda isə şəxsi qisas hissi və ya ani emosional partlayış həlledici rol oynayır. Sosial təzyiq və ətraf mühitin təsiri də bu motivlərin formalaşmasında mühüm yer tutur.

Kriminal psixologiya bu motivləri yalnız hadisədən sonra deyil, hadisənin gedişində də analiz etməyə çalışır. Cinayət üsulu, törədildiyi vaxt, davranış tərzi və hadisədən sonrakı reaksiyalar çox zaman gizli motivlərin üzə çıxmasına kömək edir.

### İstintaqda psixoloji yanaşma

Müasir istintaq prosesində artıq yalnız maddi sübutlarla kifayətlənilmir. Şahid ifadələrinin təhlili, şübhəli şəxsin davranışlarının müşahidəsi və psixoloji profilin hazırlanması da araşdırmanın mühüm hissəsinə çevrilib. Bu yanaşma cinayətlərin daha operativ və düzgün açılmasına kömək edir. Eyni zamanda gələcəkdə oxşar hadisələrin qarşısının alınması üçün də əhəmiyyətli məlumatlar verir.

Hər bir cinayətin arxasında fərqli şəxsiyyətlər və insan davranışını formalaşdıran müxtəlif səbəblər dayanır. Bu isə sübut edir ki, cinayət təkcə hüquqi məsələ deyil, eyni zamanda dərin sosial və insan davranışları ilə bağlı proseslərin nəticəsidir. Məhz bu yanaşma sayəsində araşdırmalar dəqiq, sistemli və effektiv şəkildə aparıla bilir.

*Aytən Tahirova*

# Sinqapur polisində yenilik

## Hələ sınaqdan keçirilir



Sinqapur polisi gələcəyin təhlükəsizlik texnologiyalarını nümayiş etdirən yeni sınaqla diqqət mərkəzinə düşüb. Sosial şəbəkələrdə sürətlə yayılan görüntülərdə xüsusi jet kostyumu geyinmiş polis əməkdaşının havaya qalxaraq əməliyyat həyata keçirdiyi görünür.

Nümayiş zamanı polis əməkdaşı patrul qayığından havaya qalxaraq hədəf gəmisinə eniş edib. Əməliyyata havadan müşahidə aparan dronlar da cəlb olunub. Görüntülər sosial şəbəkə istifadəçiləri arasında böyük maraq yaradıb. Bir çoxları səhnələri elmi fantastik filmlərə bənzədib. Layihə "Singapore Police Force" və Böyük Britaniyanın "Gravity Industries" şirkətinin əməkdaşlığı çərçivəsində həyata keçirilib. Şirkətin hazırladığı jet kostyum xüsusi reaktiv mühərriklər vasitəsilə insanın qısa müddətdə havada hərəkət etməsinə imkan yaradır.

Məlumata görə jet kostyum saatda 130 kilometrdən çox sürət yığa bilir. Hazırda texnologiyanın əsasən dəniz təhlükəsizliyi, terror risklərinə operativ müdaxilə və xüsusi əməliyyatlarda istifadəsi nəzərdən keçirilir. Bu texnologiyanın geniş tətbiqi üçün uçuş müddətinin qısa olması, təhlükəsizlik məsələləri və yüksək maliyyət əsas problemlər arasında göstərilir. Sinqapurun nümayiş etdirdiyi yeni sistem gələcəyin polis texnologiyalarına dair ən diqqətçəkən layihələrdən biri hesab olunur.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik